# Rəssamın sənət dünyası

**Rəsmlərinə baxdıqca, bu gözəlliklərin rəssam fırçası ilə yarandığına inana bilmirsən. Uca dağların əzəməti, vüqarı, göz oxşayan yaşıl düzlərin təravəti o qədər canlı, o qədər təbiidir ki... Yasəmənin, bənövşənin, ağ çiçəyin yarpaqlarına, ləçəklərinə toxunsan, xəfifcə titrəyəcək sanki... Necə böyük istedada, necə güclü duyğuya malik olmalısan ki, gördüklərini, duyduqlarını təbiətin yaratdığı kimi yaradabiləsən?!**



İstedadı, qabiliyyəti ilə hələ kiçik yaşlarından fərqlənirdi Əli. Valideynləri də onun rəsm çəkməyə olan həvəsinin ötəri olmadığını görür, ağ vərəq üzərində uşaq təxəyyülü ilə çəkdiyi rəsmlərin nə vaxtsa sənətdə öz sözünü demiş bir rəssam təxəyyülünün məhsuluna çevriləcəyinə inanırdılar. 1977-ci ildə—orta məktəbi bitirdiyi il sənədlərini Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbinə hazırlayanda valideynləri gümanlarında yanılmadıqlarına bir daha əmin oldular. Yüksək nəticə ilə imtahanlardan keçərək tələbə adını qazanan Əli burada “bədii tərtibat” ixtisası üzrə Elxan Tahirov və Rüfət Əsədullayevdən sevdiyi sənətin sirlərini öyrənir. Gənc rəssam tələbəliyin ilk illərindən professional yaradıcılıqla məşğul olmağa başlayır. Bu illərdə o, göz açdığı torpağa vurğunluğu və sevgisi duyulan bir sıra əsərlər yaradır. Rəssamlıq Məktəbini əla qiymətlərlə başa vurduqdan sonra öyrəndiklərini dərinləşdirmək, ali dərəcədə mənimsəmək həvəsi ilə 1983-cü ildə M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun rəssamlıq fakültəsinə daxil olur. Qrafika ixtisası üzrə Bayram Qasımxanlı, Tofiq Kazımov, Tələt Şıxəliyev, Əli Verdiyev və Rəsul Hüseynovdan dərs alaraq sənətini mükəmməl öyrənən gənc rəssam sirli-sehrli, al-əlvan, duyğularını riqqətə gətirən bir dünyanın ağuşuna atılır. Bu dünyada doğulub boya-başa çatdığı Göyçə mahalı ilə yanaşı, Bakı, Gəncə, Xızı, eləcə də vətəninin digər məskənlərini qarış-qarış gəzərək bu yerlərin təbiətinə həsr olunmuş “Ramana qəsri”, “Bakıda payız”, “Bakı qışı. Ramana”, “Kəpəz dağı”, “Kiçik Qafqaz dağları”, “Qış. Bakıxanov”, “Qoşqar dağı”, “Beşbarmaq”, “Xızı” və başqa əsərlərini yaradır.

Əli İsmayıl (Əliyev) 1989-cu ildən professional yaradıcılıqla məşğul olmaqla bərabər, həm də 1989-2000-ci illərə qədər “Azərbaycanfilm” kinostudiyasında animasiya cizgi filmləri üzərində çalışır. O illərdə çəkilən müxtəlif cizgi filmlərində rəssam, rejissor assistenti, bəzi cizgi filmlərində isə (“Karvan”, “Qaravəlli 2”) quruluşçu rəssam və quruluşçu rejissor kimi fəaliyyət göstərir.

Gerçəklikdən romantizmə qədər uzanan sənət yolunda Əli İsmayıl realizmdən qaynaqlanan poetik sənətkar təxəyyülünə söykənir. Öz dəsti-xətti, zənginliyi ilə seçilən rəssam yaradıcılığında gerçəkliyin əksini yaratmağa müvəffəq olmuşdur. Təsviri sənətin müxtəlif janrlarında fırçasını sınayan Əli İsmayıl mənzərə janrına daha çox üstünlük verir. Vaxtilə görkəmli rəssam Səttar Bəhlulzadənin daha çox işlədiyi mənzərə-natürmort kompozisiyası üslubunda əsərlər yaradır. Azərbaycan incəsənətində çox az rast gəlinən bu janrda o, doğma vətənini, onun əsrarəngiz təbiətini, gözəlliklərini, barlı-bərəkətli torpağını heyranlıqla vəsf edir, Aşıq Ələsgər yurdu olan qədim Göyçənin, Kəpəzin, Beşbarmağın, Xızının, Bakının özünəməxsus gözəlliyini, vətəninə, torpağına vurğunluğunu, sevgisini bitib-tükənməyən duyğularını kətan üzərinə köçürür. Rəssam yurdunun gözoxşayan təbiətini, uca dağlarını, şır-şır axan bulaqlarını, gül-çiçəyə qərq olmuş yaşıl düzlərini “Göyçədə qış”, “Göyçə gölü”, “Evimiz”, “Qoca dağda qış”, “Göyçə gölündə axşam”, “Gülbaharın evi”, “Güney kəndi yayda” və digər tablolarında ustalıqla təsvir etmişdi.



Realizmin bütün ifadə vasitələrindən özünəməxsus tərzdə, ustalıqla istifadə edən rəssam qışın qılınc kimi kəsən soyuğunu, yayın qızmar istisini rənglərin minbir çalarları ilə elə təsvir edir ki, tamaşaçı bu əsərlərə baxdıqca, özünü rəssamın təsvir etdiyi məkanda hiss edir. Elə Əli İsmayılı öz tamaşaçısına doğma edən, sevdirən əsas cəhətlərdən biri də budur.

Mənzərə-natürmort janrında yaratdığı “Göyçə gölü” və “Qoca dağ” tabloları keçmişi xatirələrlə anan, gələcəyə ümidlə baxan rəssamın yaradıcı təxəyyülünün məhsuludur. Bu əsərlərdə rəssamın ilham pərisi onu zaman-zaman gəzib gördüyü yerlərin bədii obrazını yaratmağa həvəsləndirmişdi.

Mənzərə-natürmort janrı ilə yanaşı, həm də ayrı-ayrılıqda mənzərə və natürmort janrında da bir sıra əsərlər yaradan rəssam qədim mis və saxsı qablardan tutmuş, müxtəlif meyvə və gül-çiçəyi, cansız saydığımız əşyaları o qədər duyğusallıqla, canlı təsvir edir ki, onların kətan üzərində deyil, çəkilmiş bir rəsm əsərinin təbii olduğuna inanmaq istəyir. Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Ziyadxan Əliyevin dediyi kimi: “Avropalılardan fərqli olaraq, kompozisiyaya daxil etdiyi əşyaları “ölü” və “cansız”lıqdan çıxarmağa səy göstərən Əli İsmayıl əsərlərində onlarla dialoq qurmağa iddialıdır. Odur ki, “Göyçə gölü”nün və “Qoca dağın”, eləcə də “Kəpəz” mənzərəsinin fonundakı müxtəlif formalı və funksiyalı əşyalar dialoqa hazır və bir çox hallarda isə suallı görünürlər”.

Azərbaycan dekorativ sənət nümunələrindən olan xalça və kilimlər üzərindəki naxışlara Əli İsmayılın bütün əsərlərində rast gəlmək mümkündür ki, bu da rəssamın hər şeydən əvvəl öz kökünə, soyuna bağlılığının ifadəsidir. Onun “Göyçə gölü”, “Könülün hədiyyələri”, “Qərbi Azərbaycan”, “Qoca dağ” və s. lövhələrində ifadə olunan bu bağlılığı görməmək mümkün deyil.

“Bənövşəli qablar”, “Payız bərəkəti”, “Çiçəyin gülləri” və s. natürmortlarında rəssamın öz tamaşaçısını düşündürməyə müvəffəq olduğu qədər, “Pəncərə” adlı süjetli kompozisiyasında, yağlı boya və qrafik vasitələrlə çəkdiyi “Anam”, “Avtoportret”, “Elmibəy” və başqa portretlərdə də insanın psixologiyasına təsir etmək qabiliyyəti duyulur.

Bütün əsərlərində özünəməxsus dəst-xətti, düzgün rəng seçimi, məna və məzmun vəhdəti müşahidə olunan Əli İsmayılın yaradıcılığı özünəməxsusluq, öz üslubuna meyillik var. Bu da onun öz tamaşaçısı qarşısına heç vaxt əliboş çıxmadığını söyləməyə imkan verir.

Sənətdə öz sözünü demiş, öz yeri, öz mövqeyi olan Əli İsmayıl hazırda Azərbaycan Dövlət İqtisad Universitetinin dizayn kafedrasının müəllimidir. Respublikada keçirilən sərgilərdə, dövlət tədbirlərində teztez iştirak edən, 2002-ci ildə fərdi yaradıcılıq sərgisini keçirən rəssamın “Sarı çiçəklər və üzərlik”, “Ağ çiçəklər”, “Sarı çiçəklər. Göyçə gölü”, “Sarı çiçəklər və mis çıraq”, “Sarı güllər və nar” və s. əsərləri dövlət muzeylərində və şəxsi kolleksiyalarda saxlanılır.

Müasir Azərbaycan rəngkarlığında özünəməxsus yer tutan, hər zaman sənət axtarışında olan Əli İsmayıla yeni yaradıcılıq uğurları arzulayırıq.

**Mehparə ƏLİYEVA,**
**“Respublika”.**

Respublika.- 2019.- 11 avqust. S. 3.